

Şair kürsüdə, yoxsa dar ağacında olmalıdır?

Sabir Rüstəmxanlı: "...Birdən Xudu müəllim oturduğumuz xalçanın üstündə dizi üstə durub, əllərini göyə açaraq belə dedi: "Ay Allah, sən tezliklə bu zastavanı o kəndin gününə sal, kəndi də abad elə!""

(Əvvəli ötən sayda)

- Sabir bəy, söhbətimiz bayaqdan üç prinsip üzərində gedir: cəmiyyət, ruh, ölüm. Bildiyimiz kimi, cəmiyyətdə belə bir fikir var ki, xalq sevdiyi adamı ya kürsüdə, ya da dar ağacında görmək istəyir. Şairlər də xalqın içərisində olan, onun dərdləri ilə yaşayan çox həssas insanlardır. Necə bilirsiniz, şair xalqın sözünü demək üçün kürsüdə olmalıdır, yoxsa dar ağacında?

- Bütün terminlər, ərəb, fars, Avropadan alınma sözlərdir. Bircə fellər qalıb. Məsələn, olmuşdur, gəlmişdir, getmişdir və s. Dəfələrlə deyirik, bu "müvəkkil" bizim söz olmasa da yenə eybi yoxdur, bəs "ombdusman" nədir? Sonra "kontekst", "konflikt" nə deməkdir? Axı bütün bu sözlərin dilimizdə əvəzedicisi var. Özü də bunlar qanun dili ilə gəlir. Dəfələrlə demişik ki, Milli Məclisdə bir dil komissiyası olsun ki, bu yad sözləri dilimizdən təmizləsin. Terminologiya mərkəzi yoxdur. Bütün türk respublikalarında ortaq terminologiya mərkəzi olmalıdır. Heç olmasa türk dilli xalqlar arasında müştərək terminlərin sayı artsın.

Qanuna görə bütün yerlərdə adlar əvvəl Azərbaycan dilində, sonra isə digər dildə yazılmalıdır. Xarici ölkə səfirlikləri gəlib burada hansısa sənədi öz ana dilində doldurmağı tələb edir. Xaricə gedəndə bəli, ingilis dilində danışmaq olar. Axı öz vətənimdə mən niyə görə ingilis dilində yazmalıyam? Əvvəla, hər bir ölkə səfirliyi işlədikləri dövlətin dilini bilməlidir. Bundan əlavə, dil bilən köməkçiləri olmalıdır. Xaricdən gələn hər "itin-qurdun" belə dilini öyrənməyə hazırıq, amma onlara dilimizi öyrətmək istəmirik. Fikir vermişəm, qadınlarımız Türkiyədə aeroportdan düşən kimi türkcə danışmağa başlayırlar. Qayıdanda isə, təyyarəyə minən kimi keçirlər rus dilində danışmağa. Bu, biabırçılıqdır.

- Sabir bəy, yeri gəlmişkən, Televiziyalarda türk dilində verilən serialların yayımının dayandırılmasına da münasibətinizi bilmək istərdik.

- Tamamilə yalnış mövqedir. Türkiyə filmlərinin televiziyalarda göstərilməsi bizim dilimizin saflaşmasına yardım edirdi. Dilimize qarşı düşmənçilik aparan müəyyən siyasi dairələr, dilimizin eybəcər bir kökə salmaq siyasətini davam etdirmək üçün, türk dilində filmlərin yayımlanmasını yasaqladılar. Maraqlıdır, ekranlarda Rusiyanın da, Cənubi Amerikanın da bədii filmləri, "Şto, Qde, Koqda" televiziyalarda göstərilə bilər, amma türk filmləri olmaz. Bu nə siyasətdir? Bununla hara aparırlar Azərbaycanı?

Vaxtı ilə Azərbaycan soyadlarını dəyişdirməyə mane olanlar, bu gün orta və Ali məktəblərdə rus bölməsinin fealiyyət göstərməsinə heç nə demirlər. Birinci sinifdən ali məktəbi qurtarana qədər rus dilində danışırıq. Kimə lazımdır bu mütəxəssis, kiminlə rus dilində danışaq? Bütün dövlət orqanlarında yazılı və şifahi dil Azərbaycancadır. Bəs rus dilində təhsil almış bədbəxt neyləsin? Mən dilimizə qarşı açıq şəkildə təxribatın aparıldığını görürəm. Məmurlar var ki, hələ də uşaqlarını rus bölməsində oxudurlar. Mənim imkanım olsaydı, belə bir qanun yazardım ki, övladı ana dilində oxumayan ata, hər hansı vəzifə tuta bilməz. Hələ də ad və soyadlarımızın əksəriyyəti "ov", "yev"-dir. Bu milli məsələdir və bununla çox ciddi məşğul olmaq lazımdır.

- Sabir bəy, hər illərin öz şairləri var idi. Məsələn, siz 70-ci illər nəslinin nümayəndəsisiniz. 1990-cı illərdən bu tərəfə söz, ədəbiyyat elə də gözə çarpmır. Sovet dövründə senzura olsa da, böyük ədəbiyyat yaranırdı. İndi isə senzura yoxdur.Amma ədəbiyyat, dəyərli şer nümunələri də yoxdur. Nə deyə bilərsiniz bu barədə?

- 1990-cı ildən bəri gənclər izləyirəm. "Alatoran", "Turan", "9 iqlim" jurnallarını, "Türkün səsi" kimi almanaxları - müxtəlif ədəbiyyat qəzetlərini oxuyuram. Mənə elə gəlir ki, ədəbiyyatımızın gələcəyindən bir elə də narahat olmağa əsas yoxdur. İndi son dərəcə maraqlı bir ədəbi nəsil var. Bunlar bizim kimi yazmırlar. Çünki bu həyat da bizim həyat deyil. Bu dövr bir az stress, sarsıntı içindədir. Torpağımızı itirmişik. Bundan böyük sarsıntı mənbəyi ola bilməz. İndiki ədəbi nəslin yazılarında o sarsıntı var. Sadəcə biz öyrəşdiyimiz həyatın mizanı, ritmi pozulub. Ancaq həyatın sərt tərəflərini görənlər də var. Düzdür, ədəbiyyata tərbiyəsiz şeylər də gəlir. Bu da dünyada gedən proseslərlə, televiziyalarla, internetlərlə və s. bağlıdır. Hətta Rusiyada hansısa məşhur yazıçının vaxtı ilə özü üçün yazdığı pornografik əsərləri nu bu gün çap edirlər. Bizdə də elə şeylər, məsələn, S.Ə.Şirvaninin həcvləri olub. Onun indi çap olunması təbii ki, bizdə yaxşı qarşılanmaz. Gənclər bu meyllərdən qorumaq istərdim. İstərdim gənclər asl ədəbiyyatla məşğul olsunlar.

İndi dünyaya çıxış çox asanlaşıb. İnternet zamanıdır. Bu günkü həyat onlara daha yaxındır. Bu imkanlardan istifadə edib sözlərini daha uca kürsülərdən desinlər. Yəni böyük, ciddi əsərlərlə ortaya çıxsınlar və inanıram ki, çıxacaqlar da. Bu baxımdan, ədəbiyyatımızın gələcəyindən narahat, ümidsiz olmağa dəyməz. Gənclərimizin hadisələrə çox maraqlı yanaşma tərzi var. Düzdür, narahatçılıq doğuran məqamlar da var. Çünki indiki gənclər bizdən çox öz zəmanələrinə oxşayırlar. Bu zəmanənin bəyənmədiyimiz mənfi keyfiyyətləri də, çox təəssüf ki, onlara tesir edə bilir. Gənclərin hafizəsinde, yaddaşlarında bir müddət boşluq yarandı. Bu da bizdən asılı deyil. Əgər gələcəyi düşünürüksə, onda bu mərhələni mütləq keçməliyik. 1992-ci ildə əlifba islahatı aparıldı. Kirili əlifbası ilə yazılmış əsərlər arxive göndərildi. Uşaqların, gənclərin elində oxumağa ədəbiyyat olmadı. Rus məktəblərinə meylin yaranması da o vaxtlar başladı. Amma şükürlər olsun ki, klassik, hətta Sovet dövründə çap olunmayan kitablar da indi çap olunur və məktəblərə, kitabxanalara göndərilir. Təbii ki, bir az boşluq keçdi. İndiki əsrin əvvəli bir az ötən əsrin əvvəlinə oxşadı. O illərdə olduğu kimi, indi də xaricdə nə qədər azərbaycanlı oxuyur. Bir neçə müddətdən sonra çoxlu sayda xarici dilləri bilən insanlar Azərbaycana gələcək. Onda görün nə qədər tərcüməçi ədəbi nəsil yaranacaq və birbaşa orijinaldan tərcümələr edəcəklər. Bu zaman dünyanın qapıları üzümüzə geniş açılacaq. Müstəqillik çox gözəl şeydir və bunun imkanları çox genişdir. Məsələn, başqa dövrlərdə 30-40 ilə keçdiyin yolu indi 4-5 ilə keçmək olar. Ona görə də gözləməliyik ki, görək 2018-də Azərbaycanın mənzərəsi necə olacaq? Güman edirəm ki, böyük siyasi hadisənin 100 illiinə qədər ədəbi mənzərə çox yaxşı olacaq.

- Bilirsiniz, Sabir bəy, maraqlı bir nüans var. İçi siz qarışıq arxivlərə, kitabxanalara baş vurub, araşdırıb tarixi əsərlər yaradırsınız. Amma yaşadığımız dövrdə elə hadisələrin içində olduğumuz Qarabağ haqqında nədənsə böyük əsərlər yaranmır. Niyə?

- Məni də əvvəllər bir sual narahat edirdi ki, 1918-20-ci və 1922-25-ci illərdə olmuş böyük hadisələr barədə niyə əsərlər yaranmayıb? Buna keçid dövrünün sarsıntıları imkan vermeyib. Rusiyanın özündə belə həmin dövrlər yazılmayıb. Xeyli zaman keçtikdən, məsələlər tam aydınlaşandan sonra hadisələri əks etdirən əsərlər yarandı. Mirzə İbrahimov Təbrizə gedib-gələndən sonra "Gələcək gün" romanını yazdı. Meydan hadisələri yaxşı xatirimdədir. Ona görə də "Xatirə yurdu" adlı kitab da yazdım. Çünki hər şey gördüklərim idi. Bəlkə də müəyyən zaman keçəndən sonra o dövrə, onlara qayıda bilməzdim və o meydan psixologiyasından ayrılmadan o kitabı yazdım. Əlbəttə, bu, bizim qüsurumuzdur. Mən 89-cu ildən başlayaraq "Azərbaycan" qəzetində publisistik yazılar yazırdım. İndi o cür yazılardan ötrü darıxıram. Hərdən istəyirəm köşə yazıları yazım. Amma bitirmeli olduğum bir-iki kitabım var. Bunlar tale işidir. Bu gün publisistika, köşə yazıları çox mühümdür, xalq onları oxuyur. Amma sevinirəm ki, elə cavan jurnalist nəsli gəlir ki, onlar hər şeyi görürlər və yazırlar.

Bəlkə indi biz onlar kimi deyə bilmərik. Çünki içimizdə milli məclisə, partiya ilə, digər içtimai işlərlə bağlı bir məsuliyyət kompleksi var və biz bəzən o çərçivədən çıxa bilmirik. Amma indiki jurnalistlər çox yüksək səriştəli və cəsarətlə yazırlar. Onu da deyim ki, müəyyən hadisələr, məsələlər haqqında ardıcıl yazılar yazmaq üçün çox danxıram. Məsələn, elə bu dilimizlə və ya mədəniyyətimizlə, Güneylə, daxili problemlərlə bağlı yazmaq istəyirəm. Elə hər dəfə istəyirəm yazım, amma dediyim kimi, vaxt, imkan olmur. Yazıları şeylər isə çoxdur.

- Sabir bəy, şairlərin həyatında maraqlı əhvalatlar çox olur. Bu günlərdə bir məclisdə Aqil Abbas belə maraqlı əhvalatlardan birini qısaca danışdı. Şair Çingiz Əlioğlu, rəhmətlik Aydın Məmmədov, Aqil Abbas və siz bir qoyuna alimi necə dəyişmisiniz?

-(Xeyli gülür) O qoç məsələsi ilə bağlı əhvalat belə olub. Dediyiniz dostlarla Ağcabədidə idik. Qayıtmağa hazırlaşırdıq. Amma hələ vaxtımız da var idi. Bir yerdə dedilər ki, getməyin qalın, sizə bir qoç da kəsəcəyik. Bircə rəhmətlik Aydın Məmmədov tələsirdi, onun Bakıda işi var idi. Ona görə dedi ki, mən qala bilmərəm. Bizlərə isə qalmağa bəhanə lazım idi. Aqil də, Çngiz də, mən də qalmağa razılaşdıq. Onda rəhmətlik Aydın qayıtdı ki, gör bu boyda alimi bir qoyuna necə dəyişdilər? (ikimiz də gülürük). Bilirsiniz, belə əhvalatlar, xatirələr o qədərdir ki... Azərbaycan xalqı çox qonaqpərvər xalqdır. Şairinə, yazıçısına, aliminə böyük hörmətlə yanaşırlar. Vətənimizin hansı bölgəsinə getmişiksə, bu hörməti görmüşük. Bunun bir səbəbi də odur ki, biz meydanlardan keçib gəlmişik. Meydanda bəzən elə olurdu ki, bir gündə min nəfərlə görüşürdük. Bir də, jurnalist kimi də Azərbaycanın kəndlərini çox gəzmişəm. Rəhmətlik Nüsrətlə, Çingizlə bir yerdə yaradıcılıq evlərində birgə olmuşuq.

Bir dəfə Çingizlə və Nüsrətlə bir yerdə Şuşaya getmişdik. Oradakı qayadakı daşlara adlarımızı da yazmışdıq. Sonra Bərdəyə qayıtdıq. Orada Çingizin qohumlarının evində qalırdıq. Həyətdə də çox yekə günəbaxanlar var idi. Hamımız yaxşı yeyib-içmişdik. Gecə ikiədəd günəbaxan qırıb Nüsrətlə Çingiz yatan yerlərdə mələfənin altından qoydum. Bunlar da gəlib yerlərinə elə rahat uzanıblar, sanki heç nə yoxdur. Məni də gülmək tutub ki, bunlar o boyda günəbaxanın üstündə uzanıblar, amma heç nə hiss etmirlər. İkisi də təəccüblə mənə baxır ki, görəsən, mən niyə uğunub özümdən gedirəm. Biləndən sonra artıq üçümüz də bir yerdə gülüşdük. Gənclik illəri idi, belə zarafatlar çox olurdu. Bəli, gözəl günlərimiz var idi.

- Deyəsən, sizin dünya şöhrətli alim Xudu Məmmədovla da bağlı xatirələriniz var. Bəlkə "Tezadlar"ın oxucuları üçün onlardan bir-ikisini söyləyəsiniz?

- Böyük məmnuniyyətlə. Əvvəla, o böyük alimin adını və ruhunu həmişə qəzetinizə yaşatdığınıza görə baş redaktorunuz Asif Mərziliyə və bütün kollektivinizə təşəkkür edirəm. Qaldı onunla bağlı xatirəyə, bunlar olduqca çoxdur.Xudu müəllimlə lap çoxdan tanış idik.- Yaxşı yadımdadır, 1971-ci il idi. Bir gün mənə dedi ki, sənin atanın da adı Xududur, mənim adaşımdır, gedib onu görmək istəyirəm. Mən də dedim ki, ay Xudu müəllim, evimiz çox kasıbdır, şəraitimiz yoxdur, yollar çox uzaqdır. Dedi ki, dəxli yoxdur, gedəcəm.

Gördüm fikrində qətidir. Digər dostumuz Bəhmən Sultanlını da götürüb yola düzəldik. Əvvəlcə, qatarla Masallıya, oradan avtobusla Yardımlıya, Yardımlıdan da yük maşını ilə bir təhər gedib kəndə çatdıq. Bizim evdə, gözlədiyimin əksinə olaraq, Xudu müəllim özünü balıq suda hiss edən kimi, rahat hiss etməyə başladı. Evdəki kilim, palaz, xalçadakı naxışlara xüsusi maraq göstərirdi. Bəzi naxışların mənasını açırdı, bəziləri ilə maraqlanıb soruşurdu.

Bir gün sərhəd zastavasının yanında bir Xudu bulağı var idi. Çoxdan bu bulaq belə adlanırdı. Amma Xudu müəllimlə orada yeyib-içəndən sonra, bu gün də həmin bulağın adı məhz Xudu Məmmədovla bağlıdır. Bulağın başında yemək hazırlaşırdıq, dostlar kabab çəkirdi. Durduğumuz yer Savalan dağı ilə üzbəüz idi. Rusların sərhəd zastavasına yaxın olduğu üçün Yardımlının 29 kəndinin əhalisini başqa yerə köçürmüşdülər. O kəndlərdən biri də oturduğumuz yerdən görünən Deman kəndi idi və o kənd xarabalığa çevrilmişdi. Birdən Xudu müəllim oturduğumuz xalçanın üstündə dizi üstə durub, əllərini göyə açaraq belə dedi: "Ay Allah, sən tezliklə bu zastavanı o kəndin gününə sal, kəndi də abad elə!" Zastavanın rəisi olan rus zabiti də yanımızda dayanmışdı. Məndən soruşdu ki, proffessor qonağınız nə deyir? Xudu müəllimi təqdim eləmişdik, deyə bilirdi ki, alimdir. Mən də dedim ki, bəs qonaq deyir ki, Allah rus qardaşımızın canını sağ eləsin ki, qardaşı qardaşdan yaxşı qoruyur. Sərhədin o tərəfindəkilər isə bizim qardaşlarımız idi. Doğrudan da illər keçdi və o zastava dağıldı. İndi ora bizimkilərindi. Deman kəndin əhalisi isə geri qayıtdı və kənd Xudu müəllim deyən kimi abadlaşdı. O vaxtdan bəri Xudu Məmmədovun peyğəmbərcəsinə dediyi o sözlər heç vaxt yadımdan çıxmır.

Mənim "Qan yaddaşı" kitabım təzə çıxmışdı. Bir gün Xudu müəllim məni iş yerinə dəvət etdi. Gördüm "Qan yaddaşı" şeirimi bilgisayarda çıxardıb divardan asıb. Dedi ki, görürsən, sənin şeirini başımın üstündən asmışam. O, hələ gənc yaşından dünya şöhrətli alim idi. Buna baxmayaraq, ömrünün sonuna kimi sadəliyini, təvazökarlığını saxlamışdı. Az danışardı, danışdığının da hamısı sanki aforizmlər idi. Çox incə yumorlan var idi.

Bir gün Sahildəki qayxanada oturub çay içirdik. Dedi ki, bilirsənmi, oğlum Toğrul başıma nə oyun açıb? Dedim nə olub? Bildirdi ki, **bəs evdə olan bir məclisdə səni tərifləmişdim, Toğrul qayıtdı ki, Ata, niyə saxtakarlıq edirsən və gedib rəfdən sənin "Gəncə qapısı" kitabını gətirib göstərdi ki, bəzi vərəqlərin arası heç açılmayıb, nə vaxt oxumusan? Amma Toğrul bilmirdi ki, kitabdan işdə də var və onu dəfələrlə oxumuşam. Evdəki isə elə rəf üçündür.**

Bax belə sadə adam idi. Heç belə söhbətləri də gizləmirdi. Heyf, dünyadan tez getdi. Allah ona qəni-qəni rəhmət eləsin.

Elçin MƏMMƏDLİ